**Bakı xəbər.** - 2024.- 2 avqust. - № 135. - S. 8

# COP29 hazırlıqlarında beynəlxalq inteqrasiyanın yeni üsulları yaradılır...

**Vidadi Ordahallı**

**Məlum olduğu kimi, Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınaraq Cənubi Qafqazın lider dövləti kimi çıxış edir. Regionun siyasi-iqtisadi və humanitar məsələlərinin həllində önəmli rol oynayır. Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra beynəlxalq və regional təşkilatlarla əməkdaşlığa, inteqrasıyaya xüsusi önəm verir.**

Onların işində yaxından iştirak edir. Ötən illər ərzində ölkəmiz beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində böyük təcrübə əldə edib. COP29 tədbirinin keçirilməsi ərəfəsində Bakı bir neçə mühüm beynəlxalq tədbirə də ev sahibliyi edib. Bütün bunlar bu ilin noyabrında Azərbaycanın COP29-a ev sahibliyi missiyasını layiqincə həyata keçirəcəyi əminliyini yaradır. COP29-un Bakıda keçirilməsi Azərbaycanın yaşıl enerji, o cümlədən günəş və külək enerjisi sahəsində imkanlarını dünyaya nümayiş etdirməsi baxımından əla fürsətdir. Azərbaycanda keçiriləcək tədbir dünyaya bir çox yeniliklər bəxş edəcək. İnkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyi olacaq.

**Azərbaycanın beynəlxalq inteqrasiyası geniş və çoxşaxəlidir**

O da məlumdur ki, COP29 çərçivəsində Azərbaycanın beynəlxalq inteqrasiyası geniş və çoxşaxəlidir. Yəni Azərbaycan bu çərçivədə Qlobal Şimalla, Qlobal Cənub arasında körpü rolunu oynayacaq. İnkişaf etmiş ölkələrlə inkişaf etməmiş ölkələr arasında körpü rolunu oynamaqda Azərbaycanın inteqrasion fəaliyyətləri böyük və çoxşaxəlidir. Prezident İlham Əliyev iyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxışı zamanı bildirib ki, biz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qururuq: "Bizim COP-la bağlı gündəliyimiz proqnozlaşdırılabilən, aydın hədəflərə, məqsədlərə, nəticələrə köklənmiş gündəlikdir. Deyə bilərəm ki, qərardan altı ay keçdikdən sonra biz daha az hücuma məruz qalırıq. Ancaq onu bilirik ki, tədbir yaxınlaşdıqca bu ittihamların və hücumların sayı artacaqdır. Ədalətsiz və ikili standartlara əsaslanan işıqlandırmaya gəlsək, biz bilirik ki, COP tədbirinin biri Qlazqoda - Böyük Britaniyanın neft hasil etdiyi bir bölgəsində keçirilirdi və heç kəs o zaman Böyük Britaniyanı ittiham etmirdi ki, onların neft və qazı var. Bu, məhz bizim dediklərimizin həqiqi olduğunu sübut edir. Bu tədbirin əhəmiyyəti əlbəttə ki, bütün bu mənfi hallardan qat-qat çoxdur. Çünki bu, qlobal miqyasda ən mühüm hadisələrdən biridir. Bu, dünyada beynəlxalq arenada bir nömrəli konfransdır və ilk dəfədir ki, postsovet məkanında keçirilir. Bizim üçün bu, misilsiz bir şansdır ki, ən yüksək liqaya daxil oluruq. Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik. Biz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qururuq. Bizim üstünlüyümüz ondan ibarətdir ki, dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişik. 120 ölkənin iştirakı ilə orada yekdil şəkildə sədr seçilmişdik və sədrlik müddətimiz də uzadıldı. Sədrliyimiz dövründə biz böyük nüfuz qazandıq".

**Ölkəmizin bu yöndə təcrübəsi böyükdür**

Reallıq ondan ibarətdir ki, Azərbaycanın dünyada bununla bağlı təcrübəsi böyükdür. Məsələ ondadır ki, Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdə hətta bir-birinə qarşı düşmən mövqedən çıxış edən dövlətlər də iştirak edirlər. Ölkəmizin irəli sürdüyü ideyalar çərçivəsində ortaq məxrəcə gəlməyə çalışır, ortaq nöqtələr tapmağa cəhd edirlər. ABŞ-Rusiya münasibətlərinin ən kritik dönəmlərində belə, bu ölkələrin baş qərərgah rəisləri Bakıda bir neçə dəfə bir araya gəliblər. Bütün bunlar Azərbaycanın həqiqətən də müstəqil dövlət olmasından, müstəqil siyasət yeritməsindən irəli gəlir. Bu baxımdan Bakıda keçiriləcək COP29 tədbiri Qlobal Şimalla Qlobal Cənub arasında vacib təmas nöqtəsi olacaq.

**COP29 Qlobal Cənubla Qlobal Şimal arasında bir dialoq platforması olacaq**

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən İdarəçilik Akademiyasının müəllimi, sosioloq Hüseyn İbrahimov hesab edir ki, COP29 tədbiri həm də Qlobal Cənubla Qlobal Şimal arasında bir dialoq platforması olacaq: "Tədbirin əsas mahiyyəti iqlimlə, yaşıl enerji və digər bu kimi məsələlərlə bağlı olsa da, bu, tərəflər arasında dialoqa öz töhfəsini verəcək. Tərəflər arasında bir körpü rolunu oynayacaq. Nəzərə almaq lazımdır ki, Azərbaycan beynəlxalq tədbirlərdə böyük təcrübəyə malikdir. O baxımdan COP29 tədbiri daha faydalı nəticələrin əldə edilməsinə öz töhvəsini verəcək. Tərəflər arasında məhsuldar və efektiv dialoqun keçirilməsinə gətirib çıxaracaq. Xüsusəndə geosiyasi mübarizənin kəskinləşdiyi indiki dövrdə Qlobal Cənubla Qlobal Şimal arasında təmasların qurulmasına hər zaman olduğundan daha çox ehtiyac var. İnkişaf etməkdə olan və yoxsulluqdan, iqtisadi sıxıntılardan əziyyət çəkən ölkələrə yardım edilməsi getdikcə daha çox aktuallıq kəsb edir. Bu gün inkişaf etmiş ölkələrin buna daha çox imkanı var. Dünyada silahlanmaya, hərbiləşməyə milyardlar ayırmaqdansa, bu vəsaitlərin bir qismini inkişaf etməkdə olan yoxsul ölkələrin inkişafına yönəltmək daha ədalətli olacaq. Buna nail olmağın yollarından biri də beynəlxalq platformalar çərçivəsində dialoqun aparılmasından, Qlobal Cənubla Qlobal Şimal körpünün qurulmasından keçir. Ümidvaram ki, Azərbaycan COP29 çərçivəsində buna nail ola biləcək".